**Azərbaycan Respublikasının Nazirlər Kabineti**

**«Xüsusi iqtisadi zonanın ərazisində ayrıca hüquqi şəxs yaratmadan filiallar, nümayəndəliklər vasitəsilə təsərrüfat fəaliyyəti ilə məşğul olan rezidentlərin fəaliyyəti barədə balansın tərtib edilmə Qaydası və forması»nın təsdiq edilməsi haqqında**

**Qərar № 16**

**Bakı şəhəri, 25 yanvar 2010-cu il**

«Xüsusi iqtisadi zonalar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 iyun tarixli, 101 nömrəli Fərmanının 1.6-cı bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Xüsusi iqtisadi zonanın ərazisində ayrıca hüquqi şəxs yaratmadan filiallar, nümayəndəliklər vasitəsilə təsərrüfat fəaliyyəti ilə məşğul olan rezidentlərin fəaliyyəti barədə balansın tərtib edilmə Qaydası və forması» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**

**A. RASİ-ZADƏ**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 25 yanvar tarixli,16 nömrəli qərarı
ilə təsdiq edilmişdir

# Xüsusi iqtisadi zonanın ərazisində ayrıca hüquqi şəxs yaratmadan filiallar, nümayəndəliklər vasitəsilə təsərrüfat fəaliyyəti ilə məşğul olan rezidentlərin fəaliyyəti barədə balansın tərtib edilmə Qaydası və forması

## *1. Ümumi müddəa*

Bu Qayda «Xüsusi iqtisadi zonalar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 iyun tarixli, 101 nömrəli Fərmanının 1.6-cı bəndinə əsasən hazırlanmışdır və xüsusi iqtisadi zonanın ərazisində ayrıca hüquqi şəxs yaratmadan filiallar, nümayəndəliklər vasitəsilə təsərrüfat fəaliyyəti ilə məşğul olan rezidentlərin fəaliyyəti barədə balansın (bundan sonra — balans hesabatı) tərtib edilmə qaydasını və formasını müəyyən edir.

## *2. Anlayışlar*

Bu Qaydada istifadə olunmuş anlayışlar aşağıdakı mənaları ifadə edir:

- balans hesabatı - hesabat dövrünün son gününə rezidentin maliyyə vəziyyətini əks etdirən maliyyə hesabatı formasıdır;
- sintetik hesab - əmlakın, kapitalın, maliyyə nəticələrinin və s. müəyyən edilmiş növü üzrə təyin edilmiş əlamətlərinə görə ümumiləşdirilmiş məlumatların qruplaşdırılmasıdır;
- analitik hesab - sintetik hesabın daxilindəki şəxsi, material və başqa hesablardakı məlumatları daha təfsilatı ilə qruplaşdıran hesabdır;
- uçot registri - xüsusi qrafalara bölünmüş kitablarda (jurnallarda), ayrı-ayrı vərəqələrdə, kartlarda, hesablama texnikasından istifadə zamanı

disklərdə, elektron yaddaş kartlarında və digər məlumat daşıyıcılarında fasiləsiz, xronoloji, sistemli qeydiyyatdır.

***3. Balans hesabatının forması***

3.1. Xüsusi iqtisadi zona ərazisində ayrıca hüquqi şəxs yaratmadan filiallar, nümayəndəliklər vasitəsilə təsərrüfat fəaliyyəti ilə məşğul olan rezidentlərin maliyyə-təsərrüfat fəaliyyəti barədə balans hesabatı forması bu Qaydanın əlavəsinə uyğun müəyyən edilir;

3.2. balans hesabatı rezidentlərin qanunvericiliyin tələblərinə uyğun olaraq tərtib etdikləri müvafiq maliyyə hesabatını əvəz etmir, ona əlavə edilir.

***4. Balans hesabatının məzmunu***

Xüsusi iqtisadi zonanın rezidentlərinin tərtib etdikləri balans hesabatına aşağıdakı maddələr daxil edilməlidir:

- torpaq, tikili və avadanlıqlar;
- qeyri-maddi aktivlər ;
- bioloji aktivlər;
- maliyyə aktivləri (ehtiyatlar, debitor borcları və pul vəsaitləri və onların ekvivalentləri bəndlərində göstərilmiş aktivlər istisna olmaqla);
- ehtiyatlar;
- debitor borcları;
- pul vəsaitləri və onların ekvivalentləri;
- kreditor borcları;
- vergi öhdəlikləri və aktivlər;
- qiymətləndirilmiş öhdəliklər;
- faiz xərcləri yaradan öhdəliklər;
- kapital və kapital ehtiyatları.

***5. Balans hesabatının tərtib edilməsi***

5.1. Rezidentlər qanunvericiliyin tələblərinə uyğun olaraq mühasibat uçotunun aparılması üzrə uçot siyasətini hazırlayır və təsdiq edirlər.

5.2. Təsdiq edilmiş uçot siyasətində aşağıdakılar öz əksini tapmalıdır:

5.2.1. mühasibat uçotunun hesablar planı;

5.2.2. ilkin uçot sənədləri əsasında baş vermiş təsərrüfat əməliyyatlarının sintetik və analitik hesablarda əks etdirilməsi;

5.2.3. sintetik və analitik uçotun aparılması üçün zəruri hesab edilən uçot registrləri;

5.2.4. ilkin uçot sənədlərində qəbul edilmiş informasiyaların balans hesabatında əks etdirilməsi məqsədi ilə istifadə olunacaq mühasibat registrlərinin forması.

5.3. Rezidentlər tərəfindən onların uçot registrlərindəki əmlakları, öhdəlikləri, kapitalı, debitor və kreditorlarla hesablaşmaları vəziyyəti barədə məlumatlar qruplaşdırılıb ümumiləşdirilməklə balans hesabatı tərtib edilir.

5.4. Balans hesabatı rezidentin baş mühasibi və ya təyin edilmiş digər səlahiyyətli şəxs (icraçı) tərəfindən tərtib edilir.

***6. Xüsusi iqtisadi zonanın rezidentlərinin balans hesabatı üçün hesabat dövrü***

İllik balans hesabatı üçün aşağıdakı hesabat dövrləri müəyyən edilir:

- xüsusi iqtisadi zonanın rezidenti üçün hesabat dövrü yanvar ayının 1-dən dekabr ayının 31-i də daxil olmaqla;
- il ərzində oktyabr ayının 1-dək xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsini almış rezidentlər üçün birinci hesabat dövrü onların qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyat şəhadətnaməsini aldıqları tarixdən dekabr ayının 31-i də daxil olmaqla;
- oktyabr ayının 1-dən sonra xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsini almış rezidentlər üçün birinci hesabat dövrü onların

qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyat şəhadətnaməsini aldıqları tarixdən növbəti ilin dekabr ayının 31-i də daxil olmaqla.

***7. Balans hesabatının təqdim edilməsi***

Balans hesabatı hesabat dövrü başa çatdıqdan sonra rezidentin xüsusi iqtisadi zonadan kənar fəaliyyəti üzrə müvafiq balans hesabatına əlavə edilməklə, qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydalara uyğun olaraq təqdim edilir.

«Xüsusi iqtisadi zonanın ərazisində ayrıca hüquqi şəxs yaratmadan filiallar, nümayəndəliklər vasitəsilə təsərrüfat fəaliyyəti ilə məşğul olan rezidentlərin fəaliyyəti barədə balansın tərtib edilmə Qaydası və forması»na

**əlavə**

**Xüsusi iqtisadi zona ərazisində ayrıca hüquqi şəxs yaratmadan filiallar, nümayəndəliklər vasitəsilə təsərrüfat fəaliyyəti ilə məşğul olan rezidentlərin maliyyə-təsərrüfat fəaliyyəti haqqında**

**Balans hesabatı forması**

________________________ 20___ il

VÖEN

Rezidentin adı

____________________________________________________________

Fəaliyyət göstərdiyi xüsusi iqtisadi zona ____________________________________

Filial və ya nümayəndəliyin adı ___________________________________________

Əsas iqtisadi fəaliyyət növü

________________________________________________

*Ölçü vahidi (min manat)*

| **Aktiv** | **Sətir kodu** | **20X9** | **20X8** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| **I. Uzunmüddətli aktivlər** | 1 | | |
| Qeyri-maddi aktivlər................................................... | 10 | | |

| | | | |
|---|---|---|---|
| Torpaq, tikili və avadanlıq..................................... | 11 | | |
| Daşınmaz əmlaka investisiyalar (kapital qoyuluşları) ............................................................... | 12 | | |
| Bioloji aktivlər....................................................... | 13 | | |
| Uzunmüddətli debitor borcları.............................. | 14 | | |
| Uzunmüddətli maliyyə aktivləri (qoyuluşları)....... | 15 | | |
| Sair uzunmüddətli aktivlər..................................... | 16 | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | | |
| **II. Qısamüddətli aktivlər** | 2 | | |
| Ehtiyatlar ................................................................... | 20 | | |
| Qısamüddətli debitor borcları............................. | 21 | | |
| Pul vəsaitləri və onların ekvivalentləri........... | 22 | | |
| Sair qısamüddətli maliyyə aktivləri...................... | 23 | | |
| Sair qısamüddətli aktivlər.................................... | 24 | | |
| **Cəmi qısamüddətli aktivlər** | | | |
| **Cəmi aktivlər** | | | |
| **Kapital və öhdəliklər** | **Sətir kodu** | **Hesabat dövrünün sonuna** | **Əvvəlki hesabat dövrünün sonuna** |
| **1** | **2** | **3** | **4** |
| **III. Kapital** | 3 | | |

| | | | |
|---|---|---|---|
| Ödənilmiş nominal (nizamnamə) kapitalı........... | 30 | | |
| Emissiya gəliri......................................................... | 31 | | |
| Geri alınmış kapital............................................. | 32 | | |
| Ehtiyat kapitalı....................................................... | 33 | | |
| Bölüşdürülməmiş mənfəət...................................... | 34 | | |
| **Cəmi kapital** | | | |
| **IV. Uzunmüddətli öhdəliklər** | 4 | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər.... | 40 | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər................................................................... | 41 | | |
| Uzunmüddətli kreditor borcları............................. | 42 | | |
| Sair uzunmüddətli öhdəliklər.................................. | 43 | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | | |
| **V. Qısamüddətli öhdəliklər** | 5 | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər.................................................................. | 50 | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər.......... | 51 | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər.. | 52 | | |
| Qısamüddətli kreditor borcları............................. | 53 | | |
| Sair qısamüddətli öhdəliklər.................................. | 54 | | |
| **Cəmi qısamüddətli öhdəliklər** | | | |
| **Cəmi öhdəliklər.......................................................** | | | |

| | | | |
|---|---|---|---|
| **Cəmi kapital və öhdəliklər......................................** | | | |

Rəhbər ____________________ Baş mühasib __________________